*Linqvistika problemləri. Cild 1, №2, 2020, s.65-71*

# COĞRAFİ OBYEKTLƏRİN ADLANDIRILMASI ÜSULLARI

f.ü.f.d. Abbasova Vəfa
ADNSU, Azərbaycan dili kafedrası
vafa.rzayeva.74@mail.ru

**XÜLASƏ:**

Hər bir xalqın lüğət tərkibinin mühüm bir hissəsini xüsusi sözlər – onomastik vahidlər təşkil edir. Xüsusi adlar mənsub olduğu xalqın bütün linqvistik və etnolinqvistik xüsusiyyətlərini: dilini, inam və etiqadlarını, adət və ənənələrini, mədəniyyətini və digər sahələri ehtiva edir. Bu dil vahidlərinin öyrənilməsi həmin xalqın tarixi kökünün öyrənilməsi deməkdir. Xüsusi adların hər biri, eyni zamanda sözdür. Ona görə də mənsub olduğu xalqın dilinin qayda-qanunları əsasında yaranır, dil xüsusiyyətlərini də əks etdirir.

Bu cəhətdən xüsusi sözlərin-onomastik vahidlərin yaranması yollarının öyrənilməsi məsələsi xüsusi aktuallıq kəsb edir. Bu istiqamətdə zaman-zaman tədqiqatlar aparılmış, həmin sözlərin yaranmasında aktiv olan şəkilçilər, köməkçi sözlər və s. müəyyənləşdirilmişdir. Biz bu yazıda bəzi xüsusi adların yaranmasında iştirak edən Sifətlərdən bəhs edəcəyik.

Bildiyimiz kimi, bir nitq hissəsi olaraq sifətlər əlamət, keyfiyyət, rəng, dad, forma və s. bildirən sözlərdir. Hər hansı bir məfhumu təyin etmək, birini digərindən fərqləndirmək xüsusiyyəti-funksiyası daşıyır. Xüsusi adların tərkibində işləndikdə də sifətlər həmin obyektlərin birini digərindən fərqləndirmək fünksiyasını daşıyır. Prof. A.Qurbanov adları fərqləndirici nişan adlandırmışdır. əgər həmin adlarda yaxınlıq, eynilik, oxşarlıq olarsa, o zaman onlara yenidən təyinedici komponent, coğrafi nomenlər də əlavə edilir. Coğrafi məkanların adlandırılmasında nitq hissələri arasında əsas yeri, isimlər, sifətlər, feili sifətlər və saylar tutur.

Dilimizin leksikasının mühüm bir hissəsini təşkil edən söz qruplarından biri toponimlərdir. Toponimik obyektlər adlandırılarkən onları fərqləndirən sözlər, əsasən, toponimin birinci komponenti şəklində çıxış edir. Bu zaman coğrafi obyektlərə məxsus olan spesifik keyfiyyətləri əks etdirmək funksiyasını daşıyır. Belə adların ikinci hissəsi coğrafi obyekt tipini bildirən leksik vahidlərlə- nomenklatur sözlərlə ifadə edilir.Nomenklatur sözlər burada indikator rolunu oynayır. Təkrarlanan toponimlərin fərqləndirilməsi, diferensiallaşdırılması zamanı istifadə edilən keyfiyyət və kəmiyyət bildirən sözlərin bir çoxu toponim və ya hidronim yaradıcılığında birbaşa iştirak edərək sözün tərkibinə çevrilir, bir vurğu altında deyilir, hətta sözə bitişik yazılır. Sifətlərə və saylara mənsub olan sözlərin xüsusi ad yaradıcılığında əsas funksiyalarından biri də onların arxaikləşmiş mənalarını qoruyub saxlamalarıdır.

**Açar sözlər:** adlandırma, hidronim, toponim, sifət, say, feil

## СПОСОБЫ ПРИСВОЕНИЯ ГЕОГРАФИЧЕСКИХ ОБЪЕКТОВ ОБЗОР:

Важнейшей частью состава каждой нации являются слова - ономастические единицы. Содержит все лингвистические и этнолингвистические особенности людей, которым принадлежат особые имена: язык, верования и верования, обычаи и традиции, культура и другие области. Изучение этих языковых единиц означает изучение исторических корней этой нации. Каждое из специальных имен тоже слово. Поэтому он основан на правилах языка людей, к которым он принадлежит, и отражает особенности языка.

В связи с этим изучение специальных слов - способов создания ономастических единиц имеет особое значение. В этом направлении иногда проводились исследования с помощью художников, вспомогательных слов и других, активно участвующих в создании этих слов. определены. В этой статье мы поговорим о прилагательных, участвующих в создании некоторых специальных имен.

Как мы знаем, прилагательные как часть речи отмечены знаками, качеством, цветом, вкусом, формой и так далее. слова, которые выражают Он имеет функцию определения одного понятия и отличия его от другого. Даже при использовании в качестве специальных имен прилагательные имеют функцию различения одного из этих объектов от другого. профессор А. Гурбанов назвал имена отличительным знаком. если эти имена имеют сходство, сходство, сходство, то они добавляются к идентифицирующему компоненту, географическим названиям. В названии географических областей основными частями речи являются имена, существительные, прилагательные, глаголы и числа.

Одна из групп словаря, которые составляют важную часть нашего языкового словаря, - топонимы. Слова, которые отличают их при обращении к топонимическим объектам, обычно являются первым компонентом топонимики. В то же время он имеет функцию отражать специфические качества географических объектов.

Вторая часть этих названий представлена лексическими единицами, обозначающими тип географического объекта - номенклатура. Здесь номенклатурные слова играют роль индикатора. Многие из качественных и количественных терминов, используемых в дифференциации и дифференциации повторяющихся топонимов, непосредственно участвуют в топонимической или гидронимической креативности, причем акцент даже подчеркивается. Одна из ключевых функций прилагательных в

прилагательных заключается в том, что они сохраняют свои архаичные значения.

**Ключевые слова:** наименование, гидроним, топоним, прилагательное, числительное, глагол

## NAMİNG OF GEOLOGICAL OBJECTIVES METHODS

**SUMMARY:**
The most important part of the composition of each nation is the words - onomastic units. Contains all the linguistic and ethnolinguistic features of the people to whom the special names belong: language, beliefs and beliefs, customs and traditions, culture and other areas. The study of these language units means the study of the historical roots of that nation. Each of the special names is also a word. It is therefore based on the rules of the language of the people to which it belongs, and reflects the peculiarities of the language.

In this regard, the study of special words - the ways of creating onomastic units is of particular relevance. There have been occasional studies in this direction, with the help of painters, auxiliary words and others active in the creation of these words. determined. In this article we will talk about the Adjectives involved in the creation of some special names.

As we know, adjectives as a part of speech are marked by signs, quality, color, taste, form and so on. are words that express. It has the function of defining one concept and distinguishing it from another. Even when used as special names, adjectives have the function of distinguishing one of these objects from another. Prof. A. Gurbanov called the names a distinctive sign. if those names have similarity, similarity, similarity, then they are added to the identifying component, geographical names. In naming geographical areas, the main parts of speech are the names, nouns, adjectives, verbs and numbers.

One of the vocabulary groups that form an important part of our language vocabulary is toponyms. The words that distinguish them when referring to toponymic objects are generally the first component of toponymy. At the same time, it has a function to reflect the specific qualities of geographical objects.
The second part of these names is represented by lexical units that denote the type of geographical object - nomenclature. Nomenklatur words play an indicator here. Many of the qualitative and quantitative terms used in the differentiation and differentiation of repetitive toponyms are directly involved in toponymic or hydronymic creativity, with the emphasis being even underlined. One of the key functions of adjectives in adjectives is that they retain their archaic meanings.
**Key words:** naming, hydronym, toponymy, adjective, number,verb...

**ANNOTASİYA**:

Xüsusi sözlərin-onomastik vahidlərin yaranması yollarının öyrənilməsi məsələsi xüsusi aktuallıq kəsb edir. Bu istiqamətdə zaman-zaman tədqiqatlar aparılmış, həmin sözlərin yaranmasında aktiv olan şəkilçilər, köməkçi sözlər və s. müəyyənləşdirilmişdir. Biz bu yazıda bəzi xüsusi adların yaranmasında iştirak edən Sifətlərdən bəhs edəcəyik.

Bildiyimiz kimi, bir nitq hissəsi olaraq sifətlər əlamət, keyfiyyət, rəng, dad, forma və s. bildirən sözlərdir. Hər hansı bir məfhumu təyin etmək, birini digərindən fərqləndirmək xüsusiyyəti-funksiyası daşıyır. Xüsusi adların tərkibində işləndikdə də sifətlər həmin obyektlərin birini digərindən fərqləndirmək fünksiyasını daşıyır. Prof. A.Qurbanov adları fərqləndirici nişan adlandırmışdır. əgər həmin adlarda yaxınlıq, eynilik, oxşarlıq olarsa, o zaman onlara yenidən təyinedici komponent, coğrafi nomenlər də əlavə edilir. Coğrafi məkanların adlandırılmasında nitq hissələri arasında əsas yeri, isimlər, sifətlər, feili sifətlər və saylar tutur.

## GİRİŞ:

Hər bir xalqın lüğət tərkibinin mühüm bir hissəsini xüsusi sözlər – onomastik vahidlər təşkil edir. Xüsusi adlar mənsub olduğu xalqın bütün linqvistik və etnolinqvistik xüsusiyyətlərini: dilini, inam və etiqadlarını, adət və ənənələrini, mədəniyyətini və digər sahələri ehtiva edir. Bu dil vahidlərinin öyrənilməsi həmin xalqın tarixi kökünün öyrənilməsi deməkdir. Xüsusi adların hər biri, eyni zamanda sözdür. Ona görə də mənsub olduğu xalqın dilinin qayda-qanunları əsasında yaranır, dil xüsusiyyətlərini də əks etdirir.

Bu cəhətdən xüsusi sözlərin-onomastik vahidlərin yaranması yollarının öyrənilməsi məsələsi xüsusi aktuallıq kəsb edir. Bu istiqamətdə zaman-zaman tədqiqatlar aparılmış, həmin sözlərin yaranmasında aktiv olan şəkilçilər, köməkçi sözlər və s. müəyyənləşdirilmişdir. Biz bu yazıda bəzi xüsusi adların yaranmasında iştirak edən Sifətlərdən bəhs edəcəyik.

Bildiyimiz kimi, bir nitq hissəsi olaraq sifətlər əlamət, keyfiyyət, rəng, dad, forma və s. bildirən sözlərdir. Hər hansı bir məfhumu təyin etmək, birini digərindən fərqləndirmək xüsusiyyəti-funksiyası daşıyır. Xüsusi adların tərkibində işləndikdə də sifətlər həmin obyektlərin birini digərindən fərqləndirmək fünksiyasını daşıyır. Prof. A.Qurbanov adları fərqləndirici nişan adlandırmışdır. əgər həmin adlarda yaxınlıq, eynilik, oxşarlıq olarsa, o zaman onlara yenidən təyinedici komponent, coğrafi nomenlər də əlavə edilir. Coğrafi məkanların adlandırılmasında nitq hissələri arasında əsas yeri, isimlər, sifətlər, feili sifətlər və saylar tutur.

Dilimizin leksikasının mühüm bir hissəsini təşkil edən söz qruplarından biri toponimlərdir. Toponimik obyektlər adlandırılarkən onları fərqləndirən sözlər,

əsasən, toponimin birinci komponenti şəklində çıxış edir. Bu zaman coğrafi obyektlərə məxsus olan spesifik keyfiyyətləri əks etdirmək funksiyasını daşıyır. Belə adların ikinci hissəsi coğrafi obyekt tipini bildirən leksik vahidlərlə- nomenklatur sözlərlə ifadə edilir.Nomenklatur sözlər burada indikator rolunu oynayır. Təkrarlanan toponimlərin fərqləndirilməsi, diferensiallaşdırılması zamanı istifadə edilən keyfiyyət və kəmiyyət bildirən sözlərin bir çoxu toponim və ya hidronim yaradıcılığında birbaşa iştirak edərək sözün tərkibinə çevrilir, bir vurğu altında deyilir, hətta sözə bitişik yazılır. Sifətlərə və saylara mənsub olan sözlərin xüsusi ad yaradıcılığında əsas funksiyalarından biri də onların arxaikləşmiş mənalarını qoruyub saxlamalarıdır.

Nomenləşdirmə baxımından diqqəti cəlb edən adlara onomastik vahidlərin bütün qruplarında rast gələ bilirik. Nomenklatur sözlərlə düzələn hidronimlərdə sifət, say və feili sifətlər, onların əks etdirdiyi məna çalarlrı, semantik sferaları müxtəlifdir.

Hidronimik adların formalaşmasında rəng bildirən sözlərdən istifadə: ağ, qara, sarı, yaşıl, göy, qızıl, qırmızı və s. Qeyd etdiyimiz və bəzi digər sifətlər həm antroponimlərin, həm toponimlərin, hidronimlərin və s. in adlandırılması zamanı intensiv olaraq müraciət edilən sifətlərdir. Lakin onların ifadə etdiyi məna çalarları müxtəlifdir.

Nümunə olaraq ***ağ*** sözünə diqqət yetirək. Ağ sözü hidronimlərin tərkibində işlənərkən bəzən müasir dilimizdəki mənalarını ifadə etsə də, bəzən fərqli məna bildirir. Azərbaycanın şimal bölgələrindən Qax rayonu, İlisu kəndində mövcud olan Ağ çayın adında ağ sözünün elə ağ rəngi bildirməsi söylənilir. İl uzunu həmin çayın suyunun rənginin ağ rəngdə olduğunu yerli sakinlər də iddia edirlər.

Lakin bəzi bulaqların, çayların adlarında isə ağ sözü bulağın və ya çayın suyunun içməli, istifadəyə yararlı olduğunu işarə etmək məqsədilə işlənmişdir. Ağsu çayı, Ağçay, Ağbulaq və s. adlarda həmin mənanın ifadə edildiyini müşahidə edirik. Deyilənə görə, Gəncə ərazisində Göygölün yaranması zəlzələ zamanı uçmuş dağların Ağsu çayının qarşısını kəsməsi nəticəsində baş vermişdir. Bu zaman onlarla çay yaranmış, onlardan ən böyükləri, ən məşhurları isə Göygöl və Maralgöl olmuşdur. Həmin Ağsu çayının suyundan Gəncə və ona yaxın ərazilərdə insanlar içmək və təsərrüfat üçün istifadə etmişlər və bu günə qədər də etməkdədirlər.

Deməli, ağ sözü hidonimin tərkibində şirin mənasını ifadə etmişdir. Ağ sözünün semantik cəhətdən tamamilə əksini bildirən qara sözü də hidronimlərin tərkibində işlənərək ad yaradıcılığında fəal iştirak etmişdir. Nümunələrə baxaq: Qarabulaq, Qaraçay, Qarasu kimi adlara ölkəmizin hər yerində rast gəlmək mümkündür. İlk növbədə, qara sözü bayaq qeyd etdiyimiz kimi, suyun istifadəyə yarasız olduğunu bildirmək məqsədilə işlədilmişdir. Bundan başqa

isə suyun bulanıqlığını, qeyri-şəffaf olduğunu nəzərə çatdırmaq məqsədi daşımışdır.

Toponimik vahidlərin tərkibində isə ***ağ*** və ***qara*** sözləri bəzən coğrafi cəhətləri, bəzən obyektin böyüklüyünü və kiçikliyini diqqətə çatdırmaq məqsədilə işlədilmişdir.

Respublikamızın ərazisində mövcud olan Qaraarxac (Gədəbəy), Qarababa (Naxçıvan), Qarabağ, Qarabaldır (Qax), Qarabörk (Ucar), Qarabulaq( Gədəbəy, Qusar), Qarabucaq (Kürdəmir), Qarabürc (Naxçıvan-Şərur),Qaraquş(Göyçay, Şərur, şamaxı) və s adlarda işlənmiş qara sözünün semantikası eyni deyildir.

Bir qismində qara sözü rəng bildirir: Qarabörk (qıpçaqların qarabörklü tayfası), Qarabulaq (Qarabulaq adlı yerdə salındığına görə), Qarabürc (Şərur),Qaraquş adlarını misal göstərmək olar.

Qarabağ adında isə qara sözü "böyük" mənasındadır, ikinci komponent bağ isə qədim türk dillərində "*el, tayfa, nəsil, soy*" mənalarını bildirir. Qaraarxac,Qarabucaq adlarında da qara sözü böyük mənasında işlənmişdir.

Onomastik vahidlərin digər qruplarına diqqət yetirdikdə toponim və hidronimlərdə olduğu kimi, antrponimlərdə də qara sözünün fəallığı ilə qarşılaşırıq. Məsələn; Qara (şəxs adı), Qarayev (soyad): Qara Qarayev, Qara Namazov, Qara Məşədiyev və digər tanınmış şəxsiyyətlərin adlarında da bunu görmək mümükündür.

Burada bir cəhəti də diqqətə çatdırmaq yerinə düşər ki, coğrafi obyektlərin adlandırılması bizim ulu babalarımızın dövrünə -qədim dövrlərə, həm xalqımızın, həm də dilimizin formalaşmağa başladığı zamanlara gedib çıxır. Eyni zamanda elmi-nəzəri ədəbiyyatda qeyd olunduğu kimi, təkhecalı isimlər, saylar, sifətlər, feillər, əsasən, milli türk mənşəli sözlərdir. Ulu babalarımız adlandırma zamanı, təbii olaraq, həmin sözlərdən istifadə etmişlər.

Ağ və qara sözlərindən başqa coğrafi obyektlərimizin adlarında "təzə, ulu, yeni, yastı, əyri, sulu, dəli, şor, çürük, isti, qaynar, sərin, soyuq, böyük, kiçik, gödək və s. sifətlər" də işlənmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, sifətlərdən başqa coğrafi məkanların adlandırılmasında say istemindən də istifadə edilmişdir. Say komponentli toponimik vahidlər ölkəmizin ərazisində daha çoxdur. Bu adları müşahidə edərkən daha çox qoşa, üç, beş, yeddi, qırx, əlli və digər saylara müraciət olunduğunun şahidi oluruq. Bu adlarda sayların əsas funksiyası yanaşı mövcud olan eyni tipli yaşayış məntəqələrini, su obyektlərini bir-birindən fərqləndirməkdən ibarətdir.

Eyni zamanda həmin obyektlərin sayını, sırasını bildirməkdən də söz gedə bilər. burada diqqəti cəlb edən başqa bir cəhət isə saylara mənsub olan sözlərin hidronimlərin yaranmasında iştirak edən nümunələrinin türk dillərinə məxsus sakramental saylardan ibarət olmalarıdır.bu kəmiyyət bildirən sözlər türkdilli xalqların qədimadət- ənənələrini, dini görüşlərini kimi, həm də eynitipli əşya və ya məkanların miqdarını, şoxluğunu bildirməyə xidmət

etmişdir.Ölkəmizin ərazisindəki say komponentli toponimlərin çoxluğu və onların tədqiqi də həmin fikri bir daha təsdiq edir.

**AKTUALLIQ:** Hər bir xalqın lüğət tərkibinin mühüm bir hissəsini xüsusi sözlər – onomastik vahidlər təşkil edir. Xüsusi adlar mənsub olduğu xalqın bütün linqvistik və etnolinqvistik xüsusiyyətlərini: dilini, inam və etiqadlarını, adət və ənənələrini, mədəniyyətini və digər sahələri ehtiva edir. Bu dil vahidlərinin öyrənilməsi həmin xalqın tarixi kökünün öyrənilməsi deməkdir. Xüsusi adların hər biri, eyni zamanda sözdür. Ona görə də mənsub olduğu xalqın dilinin qayda-qanunları əsasında yaranır, dil xüsusiyyətlərini də əks etdirir.

**METOD:** Tədqiqat işində, əsasən, müqayisəli-qarşılaşdırmalı metoddan, statistik və uslubi metodlardan və yeri gəldikcə, digər dilcilik metod və usullarından istifadə edilmişdir.

**NƏTİCƏ:**
Ümumiyyətlə, verdiyimiz qısa məlumatdan da anlaşılır ki, Azərbaycan onomastik leksikasının yaranmasında digər qrup sözlərlə yanaşı, saylar və feillər də mühüm rol oynamış və bu sözlərin sistemli şəkildə araşdırılmasına, tədqiqinə ehtiyac vardır. Biz növbəti yazılarımızda bu məsələyə yenidən müraciət etməyi, adların nominativləşməsində rol oynamış "birinci, ikinci, aşağı, yuxarı, təzə, köhnə, yeni və s." bu tipli sözlər toponim yaradıcılığında intensiv işlənən coğrafi nomenlərdir.

## ƏDƏBİYYAT:

1.Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı. 1999.
2.Yusif Yusifov, Sərraf Kərimov.Toponimikanın əsasları. Bakı. 1987
3.Tofiq Əhmədov. Azərbaycan paleotoponimiyası. Bakı. 1985
4.Tofiq Əhmədov. Azərbaycan toponimikasının əsasları. Bakı. 1994
5. Meşədiyev Q. İ. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı. 1990
6. Əliyeva Rübabə . Azarbaycan toponimlərinin tarixi-linqvistik təhlili. Bakı. 2002
7. İbrahim Bayramov. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, 2002
8. Гияседдин Гейбуллаев - Топонимия Азербайджана. - Баку-Элм-1986
9. Сейран Велиев - Древний, древний Азербайджан. - Баку-Гянджлик-1986